# Osman Qoçqarın tərcümə yaradıcılığı

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru, Nizami Gəncəvi adına
Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: yashargasimov@mail.ru
https://orcid.org/0000-0002-6122-226X

**Annotasiya.** Məqalədə görkəmli özbək şairi və mütərcimi Osman Qoçqarın tərcümə yaradıcılığından bəhs edilir. Klassik və çağdaş Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrinin əsərlərini məharətlə özbəkçəyə çevirən müəllifin bu yöndəki ədəbi fəaliyyətini müstəqillik dövrü Özbəkistan-Azərbaycan ədəbi əlaqələrinin əhəmiyyətli səhifələrindən biri hesab etmək olar. Azərbaycan klassik poeziyasının bir çox qiymətli nümunələri ilə yanaşı, XX yüzil Azərbaycan nəsrinin Mirzə Cəlil, Mir Cəlal, İsmayıl Şıxlı, İsa Muğanna, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlu, Elçin, Anar, Ağamalı Sadiq və başqa bir sıra görkəmli nümayəndələrinin yaradıcılığını Özbəkistan oxucularına çatdıran zəhmətkeş qələm sahiblərindən biri məhz Osman Qoçqardır. Xüsusən, Cəlil Məmmədquluzadənin povest və hekayələri, Hüseyn Cavidin “Seçilmiş əsərləri”, Yusif Səmədoğlunun “Qətl günü” romanı, Elçinin “Seçilmiş əsərləri”nin iki cildliyi, Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi” və “Sizsiz” romanları Osman Qoçqarın tərcüməsində özbək oxucularına təqdim edilmiş və böyük uğur qazanmışdır. Tanınmış şair və tərcüməçinin orijinal poetik yaradıcılığında da Azərbaycan mövzusu mühüm yer tutmuş və türk dünyasının mənəvi-estetik dəyərlərinin təbliği və tərənnümünə geniş yer verilmişdir. Osman Qoçqarın bir sıra şeirləri, o cümlədən “Sizsiz” romanının motivləri əsasında yazılmış “Xəzər ağısı” lirik poeması ana dilimizə çevrilmiş və dəfələrlə nəşr olunmuşdur.

**Açar sözlər:** Osman Qoçqar, bədii tərcümə, Özbəkistan-Azərbaycan ədəbi əlaqələri, Mirzə Cəlil, Hüseyn Cavid, Yusif Səmədoğlu, Elçin, Anar

http://dx.doi.org/10.29228/edu.141
**Məqaləyə istinad:** Qasımbəyli Y. (2020) *Osman Qoçqarın tərcümə yaradıcılığı.* «Müqayisəli ədəbiyyatşünaslıq», № 1, səh. 286-295
**Məqalə tarixçəsi:** göndərilib – 12.06.2020; qəbul edilib – 24.06.2020

## Osman Gochgar’s translation creativity

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences, Institute of Literature named
after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: yashargasimov@mail.ru
https://orcid.org/0000-0002-6122-226X

**Abstract.** The article deals with a prominent Uzbek poet and translator Osman Gochgar’s translation creativity. Literary activity of the author, who translated works by classic and modern representatives of the Azerbaijani literature into the Uzbek

language, can be considered one of the most important stages of Uzbekistan-Azerbaijan literary relations in the independence period. Osman Gochgar is one of hardworking those who along with some valuable samples of Azerbaijan classic poetry conveyed some outstanding writers' creativity such as Mirza Jalil, Mir Jalal, Ismail Shikhli, Isa Mughanna, Sabir Ahmadov, Isi Malikzade, Yusif Samadoghlu, Elchin, Anar, Aghamali Sadig and others to Uzbek readers. Especially, narrative and stories by Jalil Mammadguluzadeh, "Selected works" by Husein Javid, "The day of the Murder" by Yusif Samadoghlu, the two volumes of "Selected works" by Elchin, novels "The Sixth Floor of the Five-Story Building" and "Without you" by Anar have been presented in Osman Gochgar's translation to the Uzbek readers and got great success. The theme Azerbaijan has occupied an essential place in well-known poet and translator's original poetic creativity and he promoted moral-aesthetic values of Turkic literature. Several poems by Osman Gochgar, as well as the poem "Elegy of Caspian" written on the basis of motives of the novel "Without you" have been translated into our native language and published many times.

**Keywords:** Osman Gochgar, artistic translation, Uzbekistan-Azerbaijan literary relations, Mirza Jalil, Husein Javid, Yusif Samadoghlu, Elchin, Anar

http://dx.doi.org/10.29228/edu.141
**To cite this article:** Gasimbeyli Y. (2020) *Osman Gochgar's translation creativity.* «Comparative Literature Studies», Issue I, pp. 286-295
**Article history:** received – 12.06.2020; accepted – 24.06.2020

## Giriş / *Introduction*

Görkəmli özbək şairi və tərcüməçisi Osman Qoçqarın ədəbi fəaliyyətindən söz açmaq faktiki olaraq çağdaş Özbəkistan-Azərbaycan ədəbi münasibətlərindən bəhs etmək deməkdir. Bir şair kimi 70-ci illərdən yaradıcılığa başlayan, şeir və poemaları ilə ədəbi ictimaiyyətin rəğbətini qazanan Osman Qoçqar 80-ci illərdən etibarən ta ömrünün son günlərinə qədər tərcüməçilik işini də uğurla davam etdirmişdir. Tanınmış şairin orijinal yaradıcılığı ilə bərabər, Azərbaycan ədəbiyyatından çevirdiyi əsərlər də ona kifayət qədər nüfuz və ədəbi populyarlıq qazandırmışdır.

## Əsas hissə / *Main Part*

### I

Osman Qoçqarın Azərbaycan ədəbiyyatının qədim və çağdaş klassiklərindən – Seyid İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Mikayıl Müşfiq, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Vaqif Səmədoğlu, Hüseyn Kürdoğlu, Fikrət Sadıq, Abbas Abdulla, Fikrət Qoca, Cabir Novruz, Sabir Rüstəmxanlı, Siyavuş Sərxanlı, Ramiz Rövşən, Vaqif Cəbrayılzadə, Vaqif Bəhmənli, Dilsuz və başqa tanınmış şairlərdən çevirmələri ötən əsrin 80-90-cı illərinin poetik prosesində müəyyən iz qoymuşdur. Osman Qoçqarın XX yüzil Azərbaycan nəsrinin say-seçmə nümunələrini qardaş özbək dilində səsləndirməsi də ədəbi əlaqələr tariximizin qürurverici səhifələri sayılmalıdır. Mirzə Cəlil, Mir Cəlal, İsmayıl Şıxlı, İsa Hüseynov, Yusif Səmədoğlu, Sabir Əhmədov, İsi Məlikzadə, Elçin, Anar, Ağamalı Sadiq, Aqil Abbas və başqa böyük nasirlərimizin yaradıcılığından nümunələri də ilk dəfə Osman Qoçqar özbəkcəyə çevirməyə təşəbbüs

göstərmişdir. Azərbaycan dilini mükəmməl bilən və ədəbiyyatımıza sözün həqiqi mənasında yaxşı bələd olan, mütərcim məsuliyyətini və tarixi missiyasını dərindən dərk edən Osman Qoçqarın bilavasitə orijinaldan müvəffəqiyyətlə tərcümə etdiyi bir sıra əsərlər isə – Mirzə Cəlilin "Danabaş kəndinin əhvalatları" povesti və 25 hekayəsi [1], Hüseyn Cavidin "Şeyx Sənan" və "İblis" faciələri [2], Yusif Səmədoğlunun "Qətl günü" romanı [3], Elçinin ən məşhur povest və hekayələrindən ibarət iki cildliyi [4, 5], Anarın "Sizsiz" və "Beşmərtəbəli evin altıncı mərtəbəsi" romanları [6] və başqa çox böyük zəhmət hesabına ərsəyə gəlmiş çevirmələri müasir Özbəkistan tərcümə sənətinin qızıl fonduna daxil olmuşdur.

Özbəkistan-Azərbaycan ədəbi əlaqələri və tərcümə sənəti tarixində silinməz iz qoymuş Osman Qoçqar 1953-cü ildə Özbəkistan Respublikası, Buxara vilayətinin Şafirkan rayonunda dünyaya gəlmişdir. Orta məktəbi əla qiymətlərlə və qızıl medalla bitirən Osman Səttar oğlu Qoçqar 1970-ci ildə Daşkənd Dövlət Universitetinin Özbək filologiyası fakültəsinə qəbul olunmuşdur. 1975-ci ildə Daşkənd Dövlət Universitetini Fərqlənmə diplomu ilə başa vuran gənc Osman bir neçə il öz təhsil aldığı orta məktəbdə müəllimlik etmiş, 70-ci illərin sonunda isə Daşkənd şəhərində Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında redaktor kimi əmək fəaliyyətini davam etdirmişdir. Osman Qoçqarın bir ədəbi işçi, nəşriyyat və mətbuat xadimi kimi də fəaliyyət tarixi çox zəngindir. O, müxtəlif illərdə "Özbəkistan", "Gənc qvardiya" nəşriyyatlarında, "Yaşlıq" ("Gənclik") və "Cahan ədəbiyyatı" jurnalları redaksiyasında, "Çolpan", "Şərq" və "Mənəviyyat" nəşriyyatlarında müxtəlif vəzifələrdə çalışmışdır. Görkəmli tərcüməçinin sonuncu iş yeri "Cahan ədəbiyyatı" jurnalı idi. XX yüzilin əvvəllərində qızğın fəaliyyət göstərən bu jurnalın səhifələrində Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərinin sıx-sıx işıq üzü görməsi bilavasitə Osman Qoçqarın mütərcim nüfuzunun və təşəbbüskarlığının nəticəsi kimi dəyərləndirilə bilər. Öz həyatının və yaradıcılığının qızğın çağında amansız ölüm isedadlı şair və tərcüməçini aramızdan apardı. Mirzə Cəlildən sonra onun yaxın dostu və silahdaşı Mirzə Ələkbər Sabirin "Hophopnamə"sini, Məhəmməd Hadinin gözəl və təkrarsız lirikasını, Əbdürrəhimbəy Haqverdiyevin "Marallarım" və "Xortdanın cəhənnəm məktubları"nı, Cəfər Cabbarlının faciələrini, Mikayıl Muşfiqin nəfis lirikasını, Əli Kərim və Məmməd Arazın şeir kitablarını və başqa neçə-neçə böyük ədəbi arzuların gerçəkləşmə ümidlərini də özü ilə birgə apardı... Özünəməxsus şair və bənzərsiz mütərcim Osman Qoçqarın ədəbi-mənəvi əlaqələrimiz tarixindəki xidmətlərini və yerini aydın təsəvvür etmək üçün, ümumən, XX yüzil Azərbaycan ədəbiyyatından özbəkcəyə tərcümə tarixinə qısaca bir ekskurs etmək kifayətdir. Bizcə, Özbəkistanda Osman Qoçqara qədərki Azərbaycan dilindən tərcümə nümunələrinin ümumi sayı və səviyyəsi barəsində müəyyən informasiya və bilgiləri burada bölüşmək məqsədə müvafiqdir.

## II

Osman Qoçqarın mütərcimlik fəaliyyətini səciyyələndirərkən, onun min illik yaşarı və canlı ənənələri mövcud olan bir tərcümə mühitində yetişdiyini vurğulamaq vacibdir. İlk öncə onu qeyd etməliyik ki, Azərbaycan dilindən Türküstan türkcəsinə, yəni özbəkcəyə tərcümə işinin tarixi də təxminən, elə sovet dövründən başlanır. Amma bu o demək deyil ki, sovetlərə qədər Azərbaycan ədəbiyyatı nümunələrini Özbəkistanda oxumayıblar. Məsələ bundadır ki, ərəb əlifbasının mövcud olduğu dövrlərə qədər, yəni, 1929-cu ildə latın əlifbasının qəbul olunmasına qədər hər iki xalq bir-birinin ədəbiyyatını tərcüməsiz, sərbəst şəkildə başa düşüb. XX əsrin əvvəllərindəki Azərbaycan mətbuatı nümunələri Türküstanda çox geniş yayılmışdı. "Molla Nəsrəddin" jurnalını isə ərəb əlifbasında hər bir türkmən, özbək, tacik, qazax, qırğız başa düşmək imkanına malik idi. Köhnə məktəb və mədrəsələrdə isə bütün müsəlman Şərqində olduğu kimi, Türküstanda da Sədi, Hafiz, Nəvai və Füzuli divanları bir dərslik kimi istifadə edilirdi. Yəni, demək istəyirik ki, Azərbaycan dilindən tərcümə məsələsi sovet dövründə ərəb əlifbasının ləğvi, əvvəlcə latın əlifbasının, sonra isə kiril əlifbasının tətbiqi nəticəsində meydana gəlmiş və aktuallaşmış bir problem idi. Məhz buna görə də Azərbaycan ədəbiyyatından tərcümədən söhbət gedərkən uzun müddət, təxminən beş-altı əsrlik bir vaxt ərzində Nizami

Gəncəvi "Xəmsə"sindən edilmiş iki tərcümə azsaylı tərcümə nümunələrindən biri hesab olunmuşdur; dahi azərbaycanlının "Xosrov və Şirin" dastanını XIV əsrdə Xarəzmli Qütb, "Məxsənül-əsrar" dastanını isə yenə Xarəzmli Heydər – Heydər Xarəzmi XV əsrdə türkcəyə çevirmişdilər.

Amma ədalət naminə onu da qeyd etməliyik ki, yeni dövrdə, hələ inqilabdan əvvəl Azərbaycan ədəbiyyatından tərcümə tarixini də ötən əsrin 10-cu illərindən etibarən elə Türküstan cədidləri (yenilikçi) başlamışlar. Yalnız "Molla Nəsrəddin" və başqa qəzet-jurnallardan alınmış materialları deyil, əsrin əvvəllərində yeni yaranmaqda olan teatrların və teatr truppalarının ehtiyaclarını ödəmək, repertuarlarını zənginləşdirmək üçün cədidlər onlarla Azərbaycan dramaturqlarının əsərlərini özbəkcəyə çevirmişdilər. Özbək ədəbiyyatşünas alimlərinin dəfələrlə vurğuladığına görə, Cəlil Məmmədquluzadənin, Əbdürrəhimbəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Nəriman Nərimanovun, Hüseyn Cavid və Cəfər Cabbarlının əksər pyesləri ötən yüzilin 10-cu illərindən başlayaraq intensiv şəkildə özbəkcəyə çevrilmiş və səhnələşdirilmişdir. İnkarolunmaz tarixi faktlara və arxiv materiallarına əsaslanaraq görkəmli özbək ədəbiyyatşünas və teatrşünas alimləri İ.Sultanov, Y.Sultanov, M.Rəhmanov, S.Qasımov, S.Əliyev, Ş.Turdiyev, N.Kərimov, L.Kayumov, H.Abdusəmədov, M.Şərifov, B.Qasımov, E.Kərimov, H.Baltabayev və başqaları Türküstanda milli dramaturgiyanın təməl daşlarını qoyan Mahmud Xoca Behbudi, Abdulla Əvlani, Əbdürauf Fitrət, Hacı Müin Şükrulla, Abdulla Bədri, Həmzə Həkimzadə Niyazi, Qulam Zəfəri, Abdulla Qədiri, Mənnan Uyğur və başqaları tərəfindən qazantatar və Azərbaycan dramaturgiyasının əksər uğurlu nümunələrinin özbəkcəyə çevrilməsini öz tədqiqatlarında qeyd etmişlər. Özbəkistan Həmzəşünasları təkcə Həmzə Həkimzadə Niyazinin Azərbaycan dilindən 20-dən çox pyesi özbəkcəyə çevirdiyini söyləyirlər. Professor B.Qasımov Abdulla Əvlaninin Azərbaycan dilindən onlarla dram əsərini çevirdiyini bildirir. Akademik M.Rəhmanov məşhur "Özbək teatrı tarixi" (1968) kitabında inqilabdan əvvəl və sonra Özbəkistan teatr truppalarının repertuarında Azərbaycan dramaturqlarının əsərlərinin üstünlük təşkil etdiyini göstərir. Professor H.Baltabayev Abdulla Əvlaninin "Ölülər" komediyasının tərcüməsi ilə kifayətlənməyib, Mirzə Cəlilin, demək olar ki, bütün pyeslərini tərcümə etdiyini və həmin səhnə əsərlərinin özünün rəhbərlik etdiyi "Turan teatr truppası" vasitəsilə ölkə şəhərlərində nümayiş olunduğunu qeyd edir. Azərbaycan dilindən və dramaturgiyasından edilən tərcümələr 1920-cı illər ərzində də səngiməmiş, yüksələn xətlə davam etmişdir. Xüsusən, Hüseyn Cavidin və Cəfər Cabbarlının səhnə əsərləri Özbəkistan teatrlarında 20-30-cu illər ərzində, repressiyalar alovlanana qədər mühüm mövqeyə malik olmuşdur. Mütəxəssislər tərcümə tariximizin bu şanlı səhifələrini qeyd etməklə bərabər, ötən əsrin əvvəllərində geniş vüsət almış həmin tərcümə "bum"unun izsiz yoxa çıxdığını da təəssüflə vurğulayırlar. Qeyd etdiyimiz və dövrün istedadlı ziyalıları, özünəməxsus ədib və dramaturqları tərəfindən yerinə yetirilmiş bu tərcümələrin itib-batmasının mühüm səbəblərindən biri onların bilavasitə səhnə üçün nəzərdə tutulması və çap olunmaması idisə, ikinci mühüm səbəb isə, şübhəsiz ki, repressiya amili ilə bağlıdır. Türk xalqlarını bir-birindən ayırmağa və tamamilə yadlaşdırmağa yönəlmiş stalinizmin repressiya və qətliam tonqallarında özbək cədidlərinin özləri ilə birgə, onların əsərləri və arxivləri, teatr repertuarlarını bəzəyən məşhur tərcümələrin və əsərlərin səhnə variantları da yanıb külə dönmüşdü.

## III

Osman Qoçqarla türk dillərindən tərcümənin özünəməxsusluğu və çətinlikləri barəsində, sovet dövrünün yaratdığı əngəllər və problemlər haqqındakı çoxsaylı söhbətlərimizdə cədidlərin yeni Türküstan mədəniyyətini formalaşdırmaq işində XX yüzilin əvvəllərindəki demokratik Azərbaycan ədəbiyyatı örnəklərinə fəal surətdə istinad etdiklərindən və həmin illərdəki qızğın tərcümə prosesindən dəfələrlə bəhs etmişdik. Yuxarıda qeyd etdiyimiz kimi, sovet dövründə ard-arda ərəb əlifbasının latın əlifbası ilə, latın əlifbasının isə 1939-cu ildən başlayaraq kiril əlifbası ilə əvəz olunması türk dillərinə tərcümə zərurətini gündəmə gətirdi. 1941-ci ildə, hələ Böyük Vətən müharibəsi başlanmazdan əvvəl Nizami Gəncəvi və Əlişir Nəvai yubileylərini keçirən Dövlət Komissiyasının iclasında Səməd Vurğunun Həmid Alimcana müraciətlə dediyi aşağıdakı mülahizələr gəlişigözəl sözlər deyildi: "Biz

indiyə qədər elə bilirdik ki, Əlişir Nəvai bir Azərbaycan şairidir”. Həqiqətən, inqilabdan öncəki köhnə, ənənəvi Azərbaycan və Türküstan məktəblərində tədris olunan dərsliklər, demək olar ki, bir-birinin eyni idi. XV-XVI əsrlərdən başlayaraq, əsasən, humanitar məzmuna və təyinata malik Şərq məktəblərində “Qurani-Kərim”, poetika elmləri, “Firdovsi”, “Nizami”, “Sədi”, “Hafiz”, “Nəvai”, “Füzuli”, “Mirzə Bedil” və başqa böyük şərq şairləri tədris olunurdu. Ənənəvi Şərq məktəblərinin dəyişməsi və onların öz yerlərini “rus-tuzem”, “rus-tatar”, daha sonra isə “üsuli-cədid” məktəblərinə verməsi ötən əsrin əvvəllərindən başlansa da, bu proses, təbii ki, 20-ci illərdən etibarən yeni sovet məktəblərinin meydana gəlməsi ilə geniş vüsət almışdı. Eyni əlifbada və eyni mədəniyyət ruhunda tərbiyə olunan Şərq xalqlarının ədəbiyyatları və klassikləri də milli çeşidlərə bölünərək, tamamilə bənzərsiz əlifbalarda təqdim olunmağa başladı. Məhz bu mənada 30-40-cı illərdən başlayaraq Türküstan türkləri Məhəmməd Füzulinin Azərbaycana məxsus olmasından necə heyrətlənirdilərsə, Azərbaycan türkləri də Əlişir Nəvainin Özbəkistana məxsusluğunu hələ o qədər qəbul edə bilmirdilər. 1926-cı ildə I Türkoloji qurultay ərəfəsində bütün türk xalqlarının dahi mütəfəkkiri Əlişir Nəvainin köhnə təqvimlə yubileyinin ilk dəfə Bakıda qeyd olunması faktı da Səməd Vurğunun yubiley komissiyasının iclasındakı təəccübünün nə qədər əsaslı olduğunu da nümayiş etdirməkdədir. Bu nöqteyi-nəzərdən yanaşanda, Azərbaycan türkcəsindən Türküstan xalqlarının dillərinə, eyni zamanda, özbək dilindən Azərbaycan türkcəsinə tərcümələrin sovet dönəmində başlanması təbii olmaqla bərabər, həm də Şərq və türk xalqlarını bir-birindən ayırmağa, parçalamağa yönəlmiş mədəni siyasətin nəticəsi kimi dəyərləndirilməlidir.

Sovet dövründə Azərbaycan ədəbiyyatının Özbəkistanda tərcüməsi və təbliği tarixi o qədər də zəngin deyil. Bu prosesin, təxminən, 30-40-cı illərdən başlandığını söyləmək olar. 20-ci illər Özbəkistan teatrlarında Hüseyn Cavid və Cəfər Cabbarlı pyeslərinin səhnələşdirilməsi, geniş təbliğ olunması bu yeni mədəni siyasətin təzahür forması deyil, əksinə, əsrin əvvəllərindən cədid yazıçıların başladığı mədəni hərəkatın davamı idi. 40-50-ci illərin tərcümə sahəsindəki ciddi və yaddaqalan hadisələri sırasında Məmməd Səid Ordubadinin “Qılınc və qələm”, Mehdi Hüseynin “Abşeron”, Mirzə İbrahimovun “Gələcək gün”, “Böyük dayaq”, romanlarının, Rəsul Rzanın “Lenin” poemasının, bir sıra şeir, hekayə və başqa əsərlərin tərcüməsini qeyd etmək yerinə düşər. Bu əsərlər sovet dövrünün ideoloji və siyasi əlamətlərini, etiketlərini əks etdirsələr də, oxucular arasında geniş yayıldığını və rəğbətlə qarşılandığını vurğulamaq məqsədə müvafiqdir. Xüsusən, “Qılınc və qələm” və “Gələcək gün” əsərləri uzun müddət sevilə-sevilə oxunmuş, “Lenin” poeması isə bədii məziyyətlərinə görə yüksək qiymətləndirilmişdi. “Lenin” poemasının özbəkcə tərcüməsinin son dərəcə uğurlu alınmasında XX yüzil özbək poeziyasının klassiklərindən biri, xalq şairi Mirtemirin böyük zəhmətini və mütərcim istedadını unutmamalıyıq. 40-50-ci illərin tərcümə məhsullarından söz açarkən Azərbaycanın Xalq şairi Səməd Vurğunun 50 illiyi münasibəti ilə nəşr olunmuş şeirlər kitabının bu prosesdə mühüm rol oynadığını da yaddan çıxartmaq olmaz. Səməd Vurğunun ilk şeirlər kitabının özbəkcəyə çevrilib nəşrə hazırlanmasında, təbii ki, Maqsud Şeyxzadə ilə birgə, Mirtemirin mühüm xidmətləri vardı. Səməd Vurğunun 60 illiyi münasibəti ilə çap olunmuş “Seçilmiş şeirlər” kitabının tərcüməsi və nəşri porsesində də Maqsud Şeyxzadə və Mirtemir yaxından iştirak etmişdilər.

Osman Qoçqar özünəqədərki tərcümə mədəniyyətini və sənətini yaradıcı surətdə qiymətləndirərkən, bu sahədə Maqsud Şeyxzadə və Mirtemirdən çox şeyləri əxs etmişdir. Ərəb, fars və rus dillərini mükəmməl dərəcədə mənimsəmiş Maqsud Şeyxzadə Türkiyə türkcəsini və başqa türk dillərini də yüksək səviyyədə bilirdi. Maqsud Şeyxzadənin tərcümə yaradıcılığı özünəməxsus bir tərcümə məktəbi kimi möhtəşəm və mötəbərdir. Böyük şair və filosofun rus dili vasitəsi ilə dünya ədəbiyyatından, qardaş və qonşu türk dillərindən, orijinaldan çevirmələri yüksək estetik əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır. Böyük sənətkarın yalnız Səməd Vurğun və Nazim Hikmətdən deyil, eyni zamanda, qazax və qırğız poeziyasından, türkmən və qaraqalpaq şairlərindən, fars-tacik şeiriyyətindən etdiyi tərcümələr də diqqətə layiqdir. Amma M.Şeyxzadənin türk dillərindən çevirmələri içərisində “Nazim Hikmət. 65 şeir” kitabını [7] misilsiz bir nümunə adlandırmaq olar. Bəlkə də bu kitab Nazim Hikmətin dünya və türk dillərinə tərcümələri içərisində ən kamilidir. “Nazim Hikmət. 65 şeir” kita-

bındakı tərcümələrin səviyyəsini və gözəlliyini yalnız Rəsul Rzanın böyük türk şairindən dilimizə etdiyi çevirmələrin estetik keyfiyyəti ilə müqayisə etmək olar.

Osman Qoçqarın hansı mənəvi-mədəni məkanda və tərcümə mühitində yetişdiyini təsəvvürümüzə gətirmək üçün xalq şairi Mirtemirin tərcüməçilik ənənələri və dərslərinə də fikir verməliyik. Mirtemir Özbəkistanda türk dillərindən tərcümə məktəbinin əsasını qoyan və bu sahədə xariqələr yaratmış sənətkardır. XX yüzil qazax, qırğız, türkmən, qaraqalpaq, uyğur və Azərbaycan poeziyasının bir çox parlaq nümayəndələrini ilk dəfə o, uğurla özbəkcə səsləndirmişdi. Qazax poeziyasının məşhur klassikləri Abay Kunanbayev, Cambul Cabayev, qırğız xalqının sevimli şairi Toxtaqul, türkmən şeirinin klassikləri Məhtumqulu, Azadi, Kəminə, böyük qaraqalpaq şairləri Berdak və Əciniyaz ilk dəfə Mirtemirin sehrli qələminin gücü ilə özbəkcə dil açmışdılar. Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Rəsul Rza, Nəbi Xəzri və çağdaş Azərbaycan şeirinin bir çox başqa nümayəndələrini özbəkcəyə məhz Mirtemir çevirdiyi üçün xalq tərəfindən məhəbbətlə qarşılanmışdır. Məsələn, Nəbi Xəzrinin şeirlər kitabını yüksək sənətkarlıqla özbəkcə səsləndirən Mirtemir türk dilindən tərcümənin misilsiz ustadı olduğunu bir daha nümayiş etdirmişdi. Yalnız Azərbaycan ədəbiyyatını sonsuz məhəbbət və sevgi ilə öz ana dilinə çevirən Osman Qoçqar deyil, 70-ci illərdə Bəxtiyar Vahabzadənin əsərlərini [8] özbəkcəyə tərcümə edən xalq şairləri Camal Kamal və Cüməniyaz Cabbarov, Səməd Vurğunun şeir və poemalarını özbək dilinə çevirən Rəzzaq Əbdürrəşid, Nazim Hikmətin “İnsan mənzərələri”ni [9] Türkiyə türkcəsindən tərcümə edən Rauf Pərfi, qazax və qaraqalpaq poeziyasını özbək dilinə yüksək səviyyədə çevirən Müzəffər Əhməd və başqa türk xalqları klassiklərini orijinaldan çevirənlər də Mirtemir dərslərini dərindən mənimsəmiş və ondan həmişə öyrənməyə çalışmışdılar. Xalq şairi Mirtemirin qardaş türk xalqları folklorundan etdiyi gözəl və mükəmməl tərcümələr də öz zamanında güclü rezonans doğurmuş və başqa qardaş respublikalarda da rəğbətlə qarşılanmışdır. Qırğızların möhtəşəm və cahanşümul “Manas”ını, qazaxların əzəmətli “Koblandı Batır”ını, qaraqalpaqların nəfis və zərif “Qırxqız”ını Mirtemir tərcüməsində oxumaq böyük ədəbi səadətdir. Böyük sənətkarın türk dillərindən tərcümə təcrübəsi və bu sahədəki uğurları qonşu və qardaş ölkələrdəki qarşılıqlı ədəbi təsir və çevirmə prosesinə pozitiv təsir göstərmişdir. Hər iki dildə – Azərbaycan və özbək dillərində eyni dərəcədə uğurla yazıb-yaradan Akif Azalpın qardaş türk dillərindən çevirdiyi onlarla poetik nümunələr [10], “Özbək xalq qoşuqlarından seçmələr” [11], “Kırımtatar xalq nəğmələri” [12], professor Nizami Tağısoyun qazax dilindən çevirdiyi “Koblandı Batır” dastanı [13] və bir çox başqa nümunələr, eyni zamanda bu sətirlər müəllifinin özbək dilinə tərcümə etdiyi, “Sehirli ağaclar” [14], “Azərbaycan nağılları” [15] və ana dilimizə bilavasitə orijinaldan çevirdiyi “Alpamış”, “Gündoğmuş” dastanları böyük Mirtemirin tərcümə sənətinin ölməzliyini və yaşarılığını təsdiq edən ədəbi dəlil-sübutlardır.

**IV**

Osman Qoçqarın Azərbaycan ədəbiyyatından tərcümələri onu göstərir ki, Özbəkistanda həmişə tərcümə işinə və sənətinə böyük məsuliyyətlə yanaşmışlar. Yuxarıda biz, Türküstanda Azərbaycan ədəbiyyatından tərcümə tarixinin XIV-XV əsrlərdən başlandığını qeyd etmişdik. Bu ölkədə, təxminən, min illik tarixi məlum olan bu mürəkkəb və özünəməxsus mədəniyyətin inkişafında kəskin qırılmalar, demək olar ki, baş verməmişdir. Tarixən Türküstanda ərəb və fars dillərindən məhəlli türkcəyə, türk dilindən isə ərəb və fars dillərinə tərcümələr mütəmadi olaraq həyata keçirilmişdir. Xüsusən, Əmir Teymurun və Teymurilərin hökmranlığı dövründə başqa mədəniyyətlər və sənətlər kimi, tərcümə sənəti də yaşamış və çiçəklənmişdir. Əlişir Nəvai öz orijinal yaradıcılığında olduğu kimi, XV əsrdə tərcümə sənəti sahəsində də misilsiz möcüzələr yaratmışdır. XVI-XIX əsrlərdə Türküstanda ictimai-siyasi və iqtisadi geriləmə mövcud olsa da, ədəbiyyat və tərcümə işi öz yerində dayanmamışdır. Bu dövrlərdə mühüm tərcümələrlə birlikdə, tərcümə tarixi və nəzəriyyəsi ilə bağlı qiymətli əsərlər ərsəyə gəlmişdi.

Sovet hakimiyyəti illərində Özbəkistanda tərcümə sənəti ilə yanaşı olaraq, tərcümə nəzəriyyəsi və tərcüməşünaslıq elmi də yenidən formalaşmışdır. Rus dilindən tərcümələrlə bərabər, qardaş dillərdən və bir sıra dünya dillərindən də tərcümələrin zəruriliyi tərcümə praktikasının təhlilini və ümumiləşdirilməsini gündəmə gətirirdi. Bu mənəvi və mədəni ehtiyacları ödəmək üçün ölkənin ali təhsil və elmi tədqiqat müəssisələrində tərcümə işini tədqiq və tədris edən şöbələr, kafedralar yaranmışdı. Məsələn, 70-80-ci illərdə Daşkənd Dövlət Universitetinin Rus filologiyası və Özbək filologiyası fakültələrində Tərcümə sənəti və nəzəriyyəsi kafedrası uğurla fəaliyyət göstərmişdir. Bu kafedraya bir neçə onillik ərzində rəhbərlik etmiş professor Qeybulla Salamov və həmin kafedranın başqa bir görkəmli üzvü professor Nəcməddin Kamilov tərcüməçilik haqqındakı elmə böyük töhfələr bəxş etmişdilər. Q.Salamovun "Tərcümə nəzəriyyəsinin əsasları" kitabı (1980) [16] və N.Kamilovun "Xarəzm tərcümə məktəbi" (1986) [17] adlanan doktorluq dissertasiyası tərcüməşünaslıq sahəsində sabiq İttifaq miqyasında ciddi rezonans doğurmuşdur. "Tərcümə sənəti və nəzəriyyəsi" kafedrasında, xüsusən, 80-ci illərdə hazırlanmış və nəşr edilmiş "Tərcümə sənəti"(elmi məqalələr toplusu) [18] Respublikada filoloji elmin inkişafında və regional nüfuza malik olmasında mühüm rol oynamışdır. Özbəkistan Elmlər Akademiyasının Əlişir Nəvai Dil və Ədəbiyyat İnstitutunda da 60-80-ci illərdə "Tərcümə sənəti və nəzəriyyəsi" şöbəsi fəaliyyət göstərmişdir. Bu şöbəyə uzun müddət rəhbərlik etmiş professor Cüməniyaz Şərifovun "Özbəkistanda tərcümə sənəti tarixi" (1970) [19] kitabı uzun müddət özbək tərcüməçilərinin və tərcüməşünaslarının stolüstü kitabı olmuşdur.

Osman Qoçqarın müstəqillik dövründə geniş vüsət alan tərcümə yaradıcılığı Azərbaycanda bu istiqamətdə baş verən mühüm milli-mədəni yenilənmələr və yenidən qurulmalar ilə də həmahəngdir. Yeni əsrin ilk onilliyində dünya ədəbiyyatının Azərbaycanda və milli mədəniyyətimizin xarici ölkələrdə təbliği və tanıdılması yönündə xeyli diqqətəlayiq işlər görülmüşdür. Osman Qoçqarın Özbəkistan miqyasında geniş rezonans doğurmuş və ölkələrimiz arasındakı münasibətlərin daha da istiləşməsinə təkan vermiş ədəbi fəaliyyəti də həmin proseslərin tərkib hissəsi kimi qiymətləndirilə bilər. Xüsusən, 2013-cü ildən AMEA-nın Humanitar və İctimai bölmələrinə bilavasitə rəhbərlik etməyə başlayan AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəylinin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən beynəlxalq miqyaslı tədbirlər ölkəmizin dünya, o cümlədən Mərkəzi Asiya respublikaları ilə elmi-mədəni əməkdaşlığına qüvvətli stimul verdi. Dünya şöhrətli alimin bir çox MDB ölkələri ilə yanaşı olaraq, Mərkəzi Asiya ölkələrinə – Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan və Özbəkistana çoxsaylı səfərləri, həmin ölkələrlə həmkarlıqda həyata keçirilən onlarla beynəlxalq elmi simpozium və konfranslar, ayrı-ayrı tanınmış alim və mütəxəssislərin artıq mütəmadi hal almış qarşılıqlı səfər və ezamiyyətləri bizim elmi-mədəni təmaslarımızı tamamilə yeni bir zirvəyə qaldırmışdır. Bu beynəlxalq elmi konfranslar sırasında Yunus Əmrə (2013), Məhtimqulu (2014), Əlişir Nəvai (2018-2020), Oljas Süleymenov (2016), Maqsud Şeyxzadə (2018), Çingiz Aytmatov (2018), Abay Kunanbayev (2020) və başqa beynəlxalq miqyaslı elmi tədbirləri xüsusi qeyd etməliyik. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru kimi akademik İsa Həbibbəylinin həyata keçirdiyi böyük yeniliklər və tədbirlər yalnız Azərbaycan miqyasında qalmayıb, qardaş ölkələrdə də əks-səda yaratmaqdadır. Azərbaycan ədəbiyyatının cahanşümul klassikləri Cəlil Məmmədquluzadə və Hüseyn Cavidin seçilmiş əsərlərinin ayrıca kitab halında və akademik İsa Həbibbəylinin geniş və ətraflı ön sözləri ilə Özbəkistan Respublikasının məşhur nəşriyyatlarında nəşr olunması bu proseslərin getdikcə daha çox elmi sanbal və səciyyə kəsb etdiyini göstərməklə yanaşı, həm də akademik məna və məndəricə daşıyan yeni mədəni epoxanın töhfələridir. Artıq xeyli vaxtdır ki, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda istiqlal ovqatı və dünyagörüşü ilə geniş vüsət almağa başlayan elmi-mədəni yeniliklər sistemində qardaş türk xalqları klassiklərinin ənənəvi yubiley və anım günlərinin keçirilməsi institut kollektivinin beynəlxalq miqyasda nüfuzunu formalaşdırmaqdadır. Hər il ənənəvi olaraq fevralın 9-da Əlişir Nəvai, fevralın 14-də Zahiriddin Məhəmməd Babur, mayın 18-də Məhtimqulu Fəraqi, Abay Kunanbayev və Çingiz Aytmatov günlərinin keçirilməsi, bu münasibətlə Azərbaycanda və qardaş respublikalarda bizim alimlərimizin yaxından iştirakı gözəl bir ənənəyə çevrilməkdədir. Akademik İsa Həbibbəylinin bilavasitə iştirakı və gərgin zəhməti nəticəsində Azərbaycan ədəbiyyatşünaslıq

elmində yeni şaxələnmələr və elmi-nəzəri sahələr meydana gəlməkdədir. XXI yüzildə yenidən qurulan və yaradılan bu elm sahələrinin banisi akademik İsa Həbibbəylidir; XXI yüzil Azərbaycan Nəvaişünaslığı, Baburşünaslığı, Məhtimquluşünaslığı, Abayşünaslığı, Şeyxzadəşünaslığı, Aytmatovşünaslığı və başqa ədəbi-nəzəri istiqamətlər müasir milli-müqayisəli ədəbiyyatşünaslığımızın tərkib hissəsinə çevrilməkdədir.

**V**

Osman Qoçqar erkən yaşlarından qəlbində ədəbiyyata böyük sevgi duymuş, təkçə doğma özbək şairlərinə deyil, həm də türk dünyasının Nizami Gəncəvi, Seyid İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Səməd Vurğun, Nazim Hikmət, Qaysın Quliyev, Mustay Kərim, İbrahim Yusubov, Rəsul Rza, Nigar Rəfibəyli, Çingiz Aytmatov, Bəxtiyar Vahabzadə, Oljas Süleymenov, Məmməd Araz, Xəlil Rza Ulutürk, Əli Kərim, Amandurdu Annadurduyev və başqa klassiklərə də sonsuz məhəbbətini öz şair dünyasında əbədi yaşatmağa, məhrəm və müqəddəs duyğularını həm şair, həm də mütərcim qələminin qüdrəti ilə ifadə etməyə müvəffəq olmuşdu. Şairin bu sətirlərin müəllifi tərəfindən ana dilimizə çevrilmiş və bilavasitə "Sizsiz"in motivləri və təəssüratı əsasında yazılmış məşhur "Xəzər ağısı"nda söylədiyi ürək sözləri onun yalnız şair qəlbinin əks-sədası olmayıb, həm də həyat və yaradıcılıq yolunun inikası, rəmzidir:

*Budur, qayğılarla ötməkdə dünya,*
*Rəsulsuz, Nigarsız gün çıxıb-batar.*
*Yeni üfüqlərə getməkdə dünya,*
*Adamalar gözəl bir yuxuda yatar*

*Nazimin çin olar arzu, istəyi,*
*Canlanar yenidən türki bitiklər.*
*Rəsulun sevdiyi rəngləri təki,*
*Göy qurşağı asta qəddini diklər.*

*Səmada ildırım, şimşəklər çaxar,*
*Yağmağa başlayar yağış, leysanlar.*
*Küləklər saçına sığallar çəkər,*
*Durnalarla dolar göy asimanlar.*

*Durnalar qayıdar hər yaz, hər bahar,*
*Qayıdıb gələrlər Rəsulla Nigar [20, s.86-87].*

**Nəticə / *Conclusion***

Osman Qoçqarın tərcümələrində olduğu kimi, onun özünəməxsus və təkrarsız poetik yaradıcılığında da ümumtürk ruhu və ovqatı hökmrandır. Nizami və Nəvai, Füzuli və Babur, Cavid və Fitrət, Cavad və Çolpan, Səməd Vurğun və Qafur Qulam, Maqsud Şeyxzadə və Nazim Hikmət, Rəsul Rza və Mirtemir, Zülfiyyə və Nigar Rəfibəyli Osman Qoçqar üçün yalnız sevimli şairlər və ustadlar deyil, həm də daha çox milli-bədii idealın daşıyıcıları, ünvanı və rəmzləridir. Zatən, qardaş özbək şairinin və mütərciminin türk xalqlarının birliyinə və mənəvi həmrəyliyinə xidmət edən həyat və yaradıcılıq yolu da ümumtürk rəmzlərindən birinə çevrilməkdədir. Əminik ki, istedadlı şair və tərcüməçinin zəngin yaradıcılığı öz doğma Vətəni Özbəkistanda olduğu kimi, qardaş Azərbaycanda da həmişə qədirşünaslıqla anılacaq və qiymətləndiriləcəkdir.

**Ədəbiyyat / *References***


1. Hüseyn Covid. Saylanma. Toşkent, 2018.
2. Calil Mammatkulizoda. Poçta kutisi. “Mumtoz soz” naşriyoti, Toşkent, 2019.
3. Yusuf Samadoğlu. Katl kuni. “Yoş qvardiya” naşriyoti. Toşkent, 1990.
4. Elçin. Tanlangan asarlar. İki cildlik, I cild. Toşkent, 2018.
5. Elçin. Tanlangan asarlar. İki cildlik, II cild. Toşkent, 2018.
6. Anor. Beşkavatli uyninq oltinci kavati. Roman. Toşkent, 2016.
7. Nozim Hikmat. 65 şeir. (Türkcadan Maqsud Şayxzoda tarcimasi). Toşkent, Özbekistan adabiyot va sanat naşriyoti, 1965.
8. Baxtiyor Vahabzoda. Şeirlar. Toşkent, “Ğafur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti, 1981.
9. Nozim Hikmat. İnson manzaralari. Toşkent, “Ğafur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti, 1982.
10. Akif Azalp. Turan havası. Bakı, 2006.
11. Akif Azalp. Özbek xalq şeirindən seçmələr. Bakı, “Elm və təhsil”, 2013.
12. Akif Azalp. Kırımtatar xalq şeirindən seçmələr. Bakı, “Elm və təhsil”, 2013.
13. Koblandı Batır. Qazax xalq qəhrəmanlıq dastanı. (Qazaxcadan çevirən prof. N.Tağısoy). Bakı, “Elm və təhsil”, 2017.
14. Ali Samad. Sehrli daraxtlar. Ozar tilidan Yaşar Kosim tarcimasi. Yoş qvardiya naşriyotı, Toşkent, 1990.
15. Ozarbaycon ertaklari. Ozarboycan tilidan M.Abduvahabova və Y.Kosim tarcimasi. Toşkent, “Şark naşriyoti”, 1995.
16. Salamov Q. Tarcima nazariyasininq asoslari. Toşkent, “Okutuvçi”, 1980.
17. Komilov N. Xorazm tarcima maktabı. Toşkent, 1986.
18. “Tarcima sanati”. (İlmiy makolalar toplamı). Ğofur Ğulom nomidaqi Adabiyot va sanat naşriyoti. Toşkent, 1980 (82, 84, 86, 88).
19. Cumaniyoz Şaripov. “Özbekistonda tarcima sanati tarixi. “Fan” naşriyoti, 1970.
20. Usmon Koçkar. Ağır karvon. Şeirlar. Toşkent. Ğofur Ğulom nomidaqi Adabiyot va sanat naşriyotı, 1991.


# Творчество перевода Усмана Гочгара

**Яшар Гасымбейли**
Доктор филологических наук, Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан. E-mail: yashargasimov@mail.ru

**Резюме.** Статья посвящена переводческому творчеству известного узбекского поэта и переводчика Усмана Гочгара. Литературная деятельность автора, который перевел на узбекский язык произведения классических и современных представителей азербайджанской литературы, можно считать одним из важнейших этапов литературных отношений между Узбекистаном и Азербайджаном в период независимости. Усман Гочгар является одним из тех, кто вместе с некоторыми ценными образцами азербайджанской классической поэзии передал творчество некоторых выдающихся писателей, таких как Мирза Джалил, Мир Джалал, Исмаил Шихли, Иса Муганна, Сабир Ахмедов, Иси Маликзаде, Юсиф Самадоглу, Эльчин, Анар, Агамали Садых и другие узбекским читателям. В частности, повествование и рассказы Джалила Мамедгулузаде, «Избранные произведения» Хусейна Джавида, «День

казни» Юсифа Самадоглу, два тома «Избранных произведений» Эльчина, романы «Шестой этаж пятиэтажного дома» и «Без тебя» Анара были представлены в переводе Усмана Гочгара узбекским читателям и получили большой успех. Тема «Азербайджан» заняла важное место в оригинальном поэтическом творчестве известного поэта и переводчика, он пропагандировал морально-эстетические ценности тюркской литературы. Несколько стихотворений Усмана Гочгара, а также поэма «Элегия Каспия», написанная по мотивам романа «Без тебя», переводились на наш родной язык и публиковались много раз.
**Ключевые слова:** Усман Гочгар, художественный перевод, литературные связи Узбекистана и Азербайджана, Мирза Джалил, Хусейн Джавид, Юсиф Самадоглу, Эльчин, Анар